| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **03.06.2014** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **177** |
| **ADI** | **Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Respublika Qəzeti (Dərc olunma tarixi: 04-06-2014, Nəşr nömrəsi: 116), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2014, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 627)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **04.06.2014** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **380.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **13201406030177** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **05.06.2014** |

**Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 820-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006,   4, maddə 323,   12, maddə 1034; 2007,   11, maddə 1105,   12, maddə 1246; 2009,   7, maddə 533,   8, maddə 627,   10, maddə 773,   12, maddələr 983, 988; 2010,   2, maddə 83,   4, maddə 292,   11, maddə 966; 2011,   1, maddə 18,   2, maddə 85,   4, maddə 281,   6, maddə 497,   10, maddə 894,   11, maddə 993; 2012,   10, maddə 950) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.11-1-ci bəndə "bağlamaq" sözündən sonra ", həmçinin sazişin qüvvədə olma müddətinin uzadılması məsələsinə baxmaq" sözləri əlavə edilsin;

2. 10.6-cı bəndə "qeyri-kommersiya hüquqi şəxsin" sözlərindən sonra ", habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin" sözləri əlavə edilsin;

3. 10.9-cu bəndə "qeyri-hökumət təşkilatlarının" sözlərindən sonra ", habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2014-cü il
177